**"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə**

**Azərbaycan RESPUBLİKASININ Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1995-ci il, № 17, maddə 277) 34-cü maddəsinə aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1-ci bəndin ikinci abzasında mötərizənin içərisində «xarici» sözündən əvvəl «kiçik sahibkarlıq subyektləri və» sözləri əlavə edilsin;

4-cü bəndin üçüncü abzasında «Xarici» sözü «Kiçik sahibkarlıq subyektləri və xarici» sözləri ilə əvəz edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 16 may 2000-ci il**

**№ 880-IQD**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2748.**